**AKF trəfindən təşkil olunan, yaxud AKF lisenziyası ilə təşkil olunan yarışlarda reklam nümayiş QAYDALARI**

1. Yarışın bütün reklam hüquqları AKF-ə məxsusdur.
2. Tanıtım xarakterli reklamlara və nümayişlərə icazə verilir, o şərtlə ki, bu cür reklam və nümayişlər AKF-in qayda və şərtlərinə uyğun olsun.
3. Platforma, podium, ekranlar, sütunlar, abada, t-shirt kimi reklam sahələri və elementləri AKF tərəfindən müəyyən ediləcək və təsdiqlənəcək.

4. Reklam görünən zaman ən azı aşağıdakı prinsiplərə riayət edilməlidir:
a) yarışda yalnız kommersiya və ya xeyriyyə xarakterli reklamlara icazə verilir.
b) tütünün, spirtli içkilərin, enerji içkilərinin reklamı; əzələ gücləndiriciləri, steroidlər və tərkibində qadağan olunmuş maddələr olan digər məhsullara icazə verilmir.
c) hər hansı bir qumar oyununun təşviqi və ya reklamı qadağandır.
d) məqsədi hər hansı bir siyasi  və ya hər hansı bir təzyiq qrupunun, istər yerli, istərsə də beynəlxalq maraqlarını irəli sürmək məqsədi daşıyan heç bir reklama icazə verilmir.
e) bütün reklamlar tətbiq olunan təhlükəsizlik qaydalarına uyğun olmalıdır.
g) AKF-in fikrincə, zövqsüz, diqqəti yayındıran, ölkəmizin milli-mənəvi dəyərlərə zidd olan, təhqiredici, böhtan və ya tədbirin xarakterini nəzərə alaraq yararsız olan heç bir reklam nümayiş etdirilə bilməz.
5. Klublara sponsorlarının loqosunu köynək və abadalarda nümayiş etdirilməsinə yalnız AKF-lə razılaşdırdıqdan sonra icazə verilir.
6. AKF təsdiq edilmiş sponsorların və tərəfdaşların xüsusi etiketlərinin və ya ticarət nişanlarının nümayişinə icazə vermək hüququnu özündə saxlayır.
7. AKF idarə heyəti vaxtaşırı reklamın yerləşə biləcəyi forma və reklam xarakterli digər materialların beynəlxalq müsabiqələrdə nümayiş etdirilmə üsulları ilə bağlı ətraflı təlimat verən Qaydaları qəbul edə bilər.

**Sponsorluq və marketinq**
8. Hər hansı marketinq gəlirinin 33 faizi (33%), o cümlədən yayım hüququ gəlirləri, sponsorluq, reklam gəlirləri və yarışla bağlı digər ianələr AKF-ə aiddir .
9. Klub yarışlarında sponsor AKF tərəfindən tərəfindən təşkil edildiyi halda, klub və AKF arasında bərabər hissələrə (50/50) bölünəcək.
10. Yarışla əlaqədar sponsorların seçilməsi üçün AKF, Klub və müvafiq sponsor arasında üçtərəfli müqavilə bağlanmalıdır.